*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 358-362*
https://doi.org/10.62837/2024.5.358

**MAYILOVA FIDAN ELÇIN QIZI**
*İxtisas: İngilis ədəbiyyatı*
Moyqod17@mail.ru

# C.OSTİN YARADICILIĞININ DÜNYA ƏDƏBİYYATINDA ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** C.Ostin, ingilis ədəbiyyatı, ailə mövzusu, sevgi problemi, qadın nəsri, roman.

***Key words:*** J.Austin, English literature, family theme, love problem, women's prose, novel.

***Ключевые слова:*** Дж. Остин, английская литература, тема семьи, проблема любви, женская проза, роман.

Ingilis ədəbiyyat bir cox qadın yazıçıları ilə məhşurdur. Virciniya Vulf, Merri Selli, Bronte bacıları, Fanni Berni, Corc Eliot, Ayris Merdok, Mariya Ecuort, Elizabet Haskell, Elizabet Bonen, Muriel Spark, Ayvi Kompton-Bennet.Qeyd edilən adların içərisində sözsüz ki, ən yüksək mövqe Ceyn Ostinə mənsubdur. Ceyn Ostin əlinə qələm alıb yazmağa başladığı zamanlar ingilis cəmiyyətində roman yazmağın qadın işi olmadığı artıq hamı tərəfindən qəbul olunmuş bir fakt idi. O, çox yaxşı bilirdi ki, atası ilə birlikdə yaradıcılıqla məşğul olsa ve belə heç kimdən dəstək və kömək görməyəcəkdir. Lakin Ceyn öz oxucuları üçün yazdı və sonunda zəfər çaldı. Valter Skotun sözləri ilə desək "Misilsiz Ceyn" bu gün də bir canlı ənənə olaraq qalır və onun əsərləri, "insan ağlının ən əzəmətli tərəfləri əks olunan" romanlar haqqındakı mülahizələri və "insan xarakteri və təbiəti haqqındakı səmimi, tutarlı bilikləri" müasir dövrdə də bədii ədəbiyyatda gedən mübahisələrdə öz aktuallığını və mənasını itirməmişdir.Ənənəvi olaraq C.Ostinin yaradıcılığını iki əsas mərhələyə bölürlər. Birinci mərhələ "Ağı və ehtiras", "Qürur və qərəz" və "Nortenqer abbatlığı" romanlarının, ikinci mərhələ isə daha sonrakı olub "Mensfild parkı", "Emma" və "Düşüncənin dəlilləri" əsərlərinin yazıldığı dövr hesab olunur [6, s.33; 1, s.25]. Osten romanlarında ön plana çıxan ən önəmli nöqtə, baş rolları həmişə qadınlara verməsi və hekayə bitmədən mütləq qəhrəmanı evləndirməsi idi. 1813-də nəşr olunan məşhur "Qürur və qərəz"in baş qəhrəmanı Elizabet Bennet idi və adətən qadınlardan ibarət, böyük, əsilzadə sayıla bilməyəcək bir ailəyə mənsub idi.Osten qəhrəmanlarının az qala nifrətlə başlayan münasibətinin sevgiyə çevrilməsini, ictimai-sosial fenomenlərə yönəltdiyi satirik dillə oxucuya çatdırmışdır. Elizabet və onun bacıları ilə müasir dövrün qadınlarının evlilik böhranını bir inqilaba, üsyana çevirmiş; Darsi ilə də cəmiyyətin qərəzli baxış bucağının tənqidini vermişdi. Lakin yazar əsərin sonunda yenə qəhrəmanlarını xoşbəxt sona çatdırmışdı. Ostinin məşhur, diqqət çəkən əsərləri arasında xüsusi yeri olan "Emma" 1814-cü ildə qələmə alınmış və 1816-cı ildə üç cilddən ibarət kitab şəklində çapdan çıxdı. Komediya üslubunda, komediya dilinə sahib bir hekayə dili olan romanın baş qəhrəmanı Emma Vudhausdur. Müəllif bu kitabında özünə rifah səviyyəsi yüksək bir həyat bəxş edə biləcək, lakin eyni zamanda aşiq ola biləcəyi bir kişi ilə evlənmək məqsədi güdən

Emmanın bu yolda yaşadığı macəraları qələmə almışdır.“Emma” haqlı olaraq Ceyn Ostenin ən yaxşı əsəri sayılır, onun yaradıcılığının zirvəsi hesab edilir. Romandakı hadisələr varlı mülkədar Vudhausun Emma adlı qızının ətrafında cərəyan edir. Bu hekayətin kifayət qədər tipik olmayan qəhramanı kasıb deyil, onun hər şeyi var – yaxşı evi, onu sevən, onunla yaxşı münasibəti olan atası, var-dövləti, - yalnız əri yoxdur. “Emma” kitabının qəhrəmanı öz niyyətinə elə aludə olur ki, ətrafında baş verənləri görə bilmir. Bu onu tez-tez pis vəziyytə salır. Müxtəlif xanımlara adaxlı seçməyə aludə olan Emma, bu adaxlılardan bəzilərinin onun özü ilə maraqlandığını və özlərini bu qızlara tay saymadıqlarını güman belə etmir. Ən yaxşı dostu mister Naytli onu dəfələrlə xəbərdar edir, amma o kiməsə qulaq asmağa adət etməyib. Emma heç nəyə baxmadan Harriet Smitin şəxsi həyatını qurmağa davam edir. Amma bu dəfə onun planları alt-üst olmağa məhkumdur və qız pis vəziyyətə düşür. “Emma” romanını tənqidçilər istehzalı, ironik və çoxsaylı sarkazma malik əsər adlandırmışlar..Evliliyin qadınların cəmiyyətdəki statuslarını təyin etdiyi bir zəmanədə yaşayan Osten orta səviyyədəki bir əyalət ailəsinə mənsub idi. Gündəlik həyatdan aldığı zövqün gülünc bir şəkildə sosial statusla əlaqədar olmasına ironik yanaşmışdır. İncə nüansları, diqqətli müşahidəsi və sadə dili ilə roman janrına müasir bir baxış bucağı gətirmişdir. Dolayısı ilə yaşadığı zamandan günümüzə qədər populyarlığını itirməyən əsərlərin müəllifi kimi tarixə imzasını atmışdır. Xüsusilə, “Qürur və qərəz” hər bir dövrün, geniş oxucu kütləsinin ən çox diqqət mərkəzində olan romanları arasında yer almaqdadır. Osten və bacısı Kassandra ömürləri boyunca evlənməmişlər. Altı dəfə kino ssenarisi üçün yenidən redaktə edilən “ Qürur və qərəz”in son versiyası olan və ən uğurlusu kimi qəbul edilən filmi 2005-ci ildə çəkilmişdir. “Qürur və qərəz” romanının çoxcəhətli tədqiq olunmasına baxmayaraq, onun bəzi aspektləri yenə də diqqətdən kənarda qalmışdır. Bu roman tematik rəngarəngliyi ilə seçilir, onda cəmiyyətin müxtəlif problemləri və maraqları bir-biri ilə qaynayıb qarışır. Romanda əsas diqqət XIX əsrin başlanğıcında ingilis cəmiyyətinin yüksək təbəqəsinin sosial adətlərinə və əxlaqına cəlb edilmişdir. Ledi Ketrin ən geniş yayılmış sosial adətlərdən biri barədə demişdir “Young women should alvvays be properly guarded and atended, according to their situation in life [4, s.179] (Gənc qadınlar həyat vəziyyətlərinə uyğun olaraq hər zaman düzgün qorunmalı və onlara qulluq edilməlidir). Ceyn Osten qəhrəmanlarının xarakterlərini, situasiyanın psixoloji çalarlarını çox böyük ustalıqla obrazların dialoqlarında təqdim etməyi bacarıb.

Ceyn Ostenin yaradıcılığının daha bir özəlliyi müəllifin satirik üslubu, hadisələrin yumoristik dililə ifadə etməsindədir. Amma bununla belə Ostenin bədii satirasında qətiyyən kəskin acılıq, qıcıqlandırıcı heç nə yoxdur. Ürəklə demək olar ki, bu satiradakı səmimiyyət və gözəllik oxucuya xüsusi zövq verə bilir. Ümumiyyətlə, Ceyn Ostenin əsərlərindəki təbiilik, bədii təxəyyül, həyatdan gələn elementlərin zənginliyi çox diqqətəlayiqdir. Məhz sadaladığımız və sadalamadığımız ədəbi-bədii xüsusiyyətlərinə görədir ki, onun “Qürur və qərəz” romanı, eləcə də digər əsərləri çap olunandan bir müddət sonra digər dillərə də tərcümə olundu. Və

xatırladaq ki, yazıçının həm ingilscə, həm də başqa dillərdəki əsərləri təkrar-təkrar çap edilib və oxucular tərəfindən çox böyük maraqla qarşılanıb.

Bəzi tədqiqatçılar bu fikirdədirlər ki, C.Ostin yaradıcılığının dövrləşdirilməsi yalnız xronologiyaya və qeyd olunan altı əsər üzərində qurulmamalıdır. Yəni müəllifin bu altı tanınmış əsərindən başqa onun gənclik dövründə yazdığı gənclik duyğuları ilə süslənmiş tamamlanmamış, həmçinin bitirə bilmədiyi ilk əsərləri də dövrləşdirmə üçün əhəmiyyət daşıyır. Ona görə də C.Ostin yaradıcılığında "Yeyvenilia", "Ser Çarlz Qrendison və ya xoşbəxt insan", "Ledi Suzen", "Senditon", "Yotsanlar" və hətta satirik ruhda qələmə alınmış "Romanın planı" əsərlərinin də mühüm yer tutduğunu unutmaq olmaz [3, s.145]. "Qürur və qərəz" əsəri ingilis ədəbiyyatındakı ən mürəkkəb məhəbbət tarixinə həsr olunmuşdur. Məhəbbət mövzusu bütün romanın leytmotivini təşkil edir. Darsi və Elizabet arasında yaranan qarşılıqlı məhəbbəti müxtəlif sosial qüvvələrdən asılı olmayan, iyerarxiyalı cəmiyyətin təhrifedici təsirlərindən yayınmaq mümkün olduqda xoşbəxtliklə nəticələnəcək bir eşq hekayəti kimi təsvir edir. C.Ostin obrazların və qəhrəmanların toplusu ilə sosiumun iyerarxik quruluşunu nümayiş etdirə bilmiş, bu cəmiyyətin üzvlərinin qeyri-bərabərliyini göstərə bilmişdir. Cəmiyyətdə qəbul edilmiş normalardan biri hər bir nigahın bağlanma ehtimalının yoxluğudur. Bu cəmiyyətdə qadınların rolu və statusu aşağı səviyyədədir, onların müstəqil qərar qəbul etmək imkanı, demək olar ki, yox dərəcəsindədir.C.Ostin yaradıcılığının filoloji tədqiqi müxtəlif istiqamət və aspektlərdən aparılmışdır. Aydındır ki, belə tədqiqat işlərinin hər biri barədə danışmaq, şərh vermək, hər şeydən əvvəl, onların say çoxluğu ilə əlaqədardırsa, digəri bu müəllifin əsərlərinin sırf ədəbiyyatşünaslıq və janr, linqvistik, üslubi və ümumfiloloji aspektdən öyrənilməsi ilə bağlıdır. Əgər Azərbaycan filologiyasında Ceyn Ostin yaradıcılığının tədqiqinə, demək olar ki, yer verilməmişdirsə, Qərb və rus filologiyasında belə araşdırmalar çoxdur.

Ümumi səciyyəli bir sıra başqa tədqiqatlarda, o cümlədən, XIX əsr ingilis bədii ədəbiyyatının dili, üslubu, bədii əsərin qəhrəmanlarının daxili aləmi, metod və janr, sujet və kompozisiya, bədii mətnin praqmatik potensialı, bədii mətn və linqvokulturoloji amillər, "qürur", "qərəz", "ağıl", "hiss" konsepti ilə bağlı məsələlərdə də C.Ostin qələminin məhsulu olan romanlardan faktual-illüstrativ material kimi istifadə olunmuş, onlara istinad edilmiş, yazıçıya xas yazı və dil manerası araşdırılmışdır. Təbii ki, tədqiqat işlərinin belə çoxluğu və tədqiqat istiqamətlərinin belə rəngarəngliyi, məqalə və monoqrafiyaların başlıqlarının informativ məhdudluğu onların içindən bilavasitə C.Ostin yaradıcılığına həsr olunan işləri seçib ayırmağa geniş imkanlar verir.Yazıçı üçün səciyyəvi olan və bir sıra əsərlərinin əsas temasını təşkil edən "ər axtarışı" mövzusu məntiqi-məzmun planında temanın inkişafını öyrənmək üçün mühüm material verir. Sevgi, məhəbbət, nigah və ailə mövzusunun romanlarda qırmızı xətlə keçməsi müəllif nitqi və personajların daxili nitqi məsələlərinə diqqət yetirməyi, müəllif şərhlərinin məzmun və oxucuya təsir keyfiyyətlərini açmaq üçün bu materialdan istifadə etməyi tələb edir.

Beləliklə, ingilis ədəbiyyatında qadın yazıçılar arasında Ceyn Ostinin özünəməxsus yeri vardır. O özünün nəqletmə məharəti ilə romanların əsas mövzusu

kimi o dövr ingilis cəmiyyətinin iç üzünü açıb göstərməsi, qadınlarında kişilər kimi, yaradıcılıqla məşğul olma hüququnu təsdiq etməsi və bununla ingilis ədəbiyyatında bir dönüş yaratması Ceyn Ostinin adını ölməz yazıçılar sırasına daxil etmişdir.

## ƏDƏBİYYAT

1. Гениева, Е.Ю. Обаяние простоты // Остин Дж. Собрание сочинений. Т.1. - Москва: Книга, - 1988. - с. 5-34.
2. Палий, А.А., Репп, Ю.Г. Виды и функции интертекстуальных включений в романе Джейн Остин «Мэнсфилд Парк» // Гуманитар. знание. Сер. Преемственность. - Омск, 2006. - Вып. 9. - с. 33-37
3. Austen-Leigh, J.E. A Memoir of Jane Austen / J.E. Austen-Leigh. – Oxford: Oxford University Press, 1967. – 276 p.
4. Austen, J. Pride and Prejudice // http://www.literaturepage.com/read/prideandprejudice-29.html
5. Mudrick, Marvin. Jane Austen: Irony as defence and discovery / M.Mudrick. – Los Angeles: University of California Press, 1968. – 267 p.
6. Tomalin, C. Jane Austen: A Life / C. Tomalin. – New York: Alfred A. Knopf, 1997, – 256 p.

Mayılova Fidan Elçin

## C.OSTİN YARADICILIĞININ DÜNYA ƏDƏBİYYATINDA ƏHƏMİYYƏTİ

### Xülasə

Məqalə C.Ostinin dünya ədəbiyyatında tutduğu yerindən bəhS edilir. Məqalənin əvvəlində C.Ostinin yaradıcılığı haqqında məlumat verilir. Göstərilir ki, Ceyn Ostin öz əsərləri ilə o dövr ingilis cəmiyyətində roman yazmağın qadın işi olmadığı ənənəvi düşüncəni darmadağın etmişdir. İngilis ədəbiyyatında qadın yazıçılar arsında Ceyn Ostinin özünəməxsus yeri vardır. İngilis ədəbiyyatında bir dönüş yaratması Ceyn Ostinin adını ölməz yazıçılar sırasına daxil etmişdir. Ceyn Ostenin yaradıcılığının xüsusi özəlliyi müəllifin satirik üslubu, hadisələrin yumoristik dillə ifadə etməsindədir. O özünün nəqletmə məharəti ilə romanların əsas mövzusu kimi o dövr ingilis cəmiyyətinin iç üzünü açıb göstərir. Məqalədə Ceyn Ostinin əsərlərinin sturuktur qurluşu barədə umumi baxış təqdim edilmişdir. Bu əsərin cəlbedici qəhramanları, onların mühakimə və düşüncələri mövcud klişelərdən azad olmaq, özünü kəşf etmək kimi cəhətlər C.Ostin romanlarının əsas qayəsini təşkil edirdi. C.Ostin obrazların və qəhrəmanların iyerarxik quruluşunu nümayiş etdirə bilmiş, bu cəmiyyətin üzvlərinin qeyri-bərabərliyini göstərə bilmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 358-362*

Mayılova Fidan Elçin

**THE SIGNIFICANCE OF J. AUSTIN'S CREATION IN CLASSICAL LITERATURE**

**Summary**

The article mentions the place of J. Austin in world literature. At the beginning of the article, information is provided about the work of J. Austin. It is shown that Jane Austen with her works shattered the traditional idea that writing a novel was not a woman's job in the English society at that time. Jane Austen has a unique place among women writers in English literature. A turning point in English literature, Jane Austen's name is among the immortal writers. The special feature of Jane Austen's work is the author's satirical style, humorous expression of events .With his narrating skills, he reveals the inner face of the English society of that time as the main theme of his novels. The article presents a general view of the structure of Jane Austen's works. The attractive characters of this work, their judgments and thoughts, freedom from existing men, and self-discovery were the cornerstones of J. Austin's novels. J. Austin was able to demonstrate the hierarchical structure of characters and heroes, and show the inequality of the members of this society.

Mayılova Fidan Elçin

**ЗНАЧЕНИЕ ТВОРЧЕСТВА ДЖ.ОСТИН В МИРОВОЙ ЛИТЕРАТУРЕ**

**Резюме**

В статье говорится о месте Дж.Остин в мировой литературе. В начале статьи дана информация о творчестве Дж.Остин. Показано, что Джейн Остин своими произведениями разрушила традиционное представление о том, что написание романов не является женским делом в английском обществе того времени. Джейн Остин занимает уникальное место среди женщин-писателей в английской литературе. Имя Джейн Остин вошло в число бессмертных писателей. Особенностью творчества Джейн Остин является сатирический стиль автора, юмористическое отображение событий.

Обладая повествовательными способностями, она раскрывает внутренний облик английского общества того времени как основную тему своих романов. В статье представлен общий взгляд на структуру произведений Джейн Остин. Привлекательные персонажи её произведений, их суждения и мысли, познание свободы, самопознание были краеугольными камнями романов Дж.Остин. Английская писательница сумела продемонстрировать иерархическую структуру характеров и героев, показать неравенство членов этого общества.

***Elmi rəhbər:F.ü.f.d.,dos Qasımova S.C.***